# Azərbaycan və Rusiya prezidentlərinin səmimi dostluğu strateji tərəfdaşlıq əlaqələrinin inkişafına xüsusi təkan verir






Noyabrın 20-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizdə rəsmi səfərdə olan Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovla görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə 2017-ci ildə Azərbaycan və Rusiya arasında diplomatik əlaqələrin qurulmasının 25 illiyinin qeyd olunduğu bildirilib və iki dövlət arasında mehriban qonşuluq, dostluq və strateji tərəfdaşlıq münasibətlərinin inkişafından məmnunluq ifadə olunub. İkitərəfli əlaqələrin inkişafında 2008-ci il 3 iyul tarixli "Dostluq və strateji əməkdaşlıq haqqında Bakı Bəyannaməsi"nin siyasi əhəmiyyəti qeyd edilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında olan səmimi dostluğun və dialoqun ölkələrimiz arasında strateji tərəfdaşlıq əlaqələrinin inkişafına xüsusi təkan verdiyi vurğulanıb.

Nazirlər Azərbaycan və Rusiya arasında ikitərəfli əlaqələrin hərtərəfli inkişafına nəzər salıblar və perspektiv inkişaf istiqamətlərini müzakirə ediblər.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesi müzakirə olunub, danışıqlarda canlanma və intensivliyin yaranması təqdir edilib. Beynəlxalq təşkilatlar çərçivəsində iki ölkə arasında mövcud olan uğurlu əməkdaşlıq qeyd olunub. Ölkələrimiz arasında əməkdaşlığın inkişaf etdirilməsində Hökumətlərarası birgə komissiyanın, XİN-lər arası siyasi məsləhətləşmə mexanizminin əhəmiyyəti vurğulanıb. Həmçinin 2001-ci ildə Azərbaycan Respublikasının Milli Məclisi və Rusiya Federasiyasının Federal Məclisi arasında imzalanmış əməkdaşlıq haqqında sazişin müddəaları əsasında, birbaşa parlamentlərarası əlaqələrin və beynəlxalq parlament təşkilatlarında əməkdaşlığın davamlı xarakter daşımasından məmnunluq ifadə olunub.

Görüşdə iki ölkə arasında ticarət dövriyyəsinin həcminin və ticarət əlaqələrinin genişlənməsində 2011-ci ildən keçirilən Azərbaycan-Rusiya Regionlararası Forumunun önəmli rolu qeyd olunub. İki ölkənin birgə səyləri nəticəsində iqtisadi-ticarət əlaqələrinin inkişafı və ticarət dövriyyəsinin, qarşılıqlı turist axınının artması xüsusi olaraq bildirilib. Azərbaycan-Rusiya-İran formatında üçtərəfli əsasda əməkdaşlığın inkişaf etdirilməsi və "Şimal-Cənub nəqliyyat dəhlizi"nin yaradılması istiqamətində olan birgə tədbirlər yüksək qiymətləndirilib.

Söhbət zamanı humanitar sahədə ikitərəfli əməkdaşlıq proqramları əsasında mədəniyyət və ictimaiyyət, elm və təhsil, informasiya və gənclər siyasəti sahələrində əməkdaşlığın gələcəkdə genişləndirilməsi və təkmilləşdirilməsi yönündə müzakirələr aparılıb və iki ölkənin himayəsi ilə keçirilən Bakı Humanitar Forumunun vacibliyi qeyd olunub.

Görüşdə, həmçinin Xəzər dənizinin hüquqi statusu, müqavilə-hüquq bazasının genişləndirilməsi, eyni zamanda, regional və qlobal məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycanın və Rusiyanın xarici işlər nazirləri Elmar Məmmədyarov və Sergey Lavrov Bakıda keçirdikləri görüşdən sonra təşkil olunan mətbuat konfransında müzakirə etdikləri məsələlər barədə məlumat veriblər.

AZƏRTAC xəbər verir ki, Elmar Məmmədyarov görüşdə Rusiyanın ATƏT-in Minsk qrupunun həmsədri kimi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində rolunun müzakirə edildiyini söyləyib. "Mən cənab naziri Azərbaycanın mövqeyi və Moskvada ATƏT-in Minsk qrupunun həmsədrləri ilə birgə keçirdiyimiz son müzakirənin nəticələri barədə məlumatlandırdım. Bu görüşdə konkret məsələlər müzakirə edilib və münaqişənin həlli üçün bir sıra variantlar əldə olunub", - deyə nazir qeyd edib.

Elmar Məmmədyarov deyib: "Ümumilikdə görüşün nəticələrini müsbət qiymətləndirirəm. Həllini tələb edən bəzi məsələlər var, biz də xoş niyyətlə bu məsələləri müzakirə etdik və ortaq nöqtələr tapmaqla bağlı razılığa gəldik. Rusiya ilə Azərbaycan strateji tərəfdaşlardır. Ölkələrimiz arasında bir çox sahələrdə əməkdaşlıq var, ticarət dövriyyəsinin həcmi ilbəil artır. Biz artıq Azərbaycan ilə Rusiya arasında çoxmilyardlı ticarət dövriyyəsindən danışa bilərik. Hesab edirik ki, bu məbləği daha da artırmaq olar".

Nazir qeyd edib ki, görüşlərdə, həmçinin parlamentlərarası əməkdaşlıq məsələləri müzakirə edilib. O qeyd edib ki, bir çox platformalarda Azərbaycan ilə Rusiyanın mövqeləri üst-üstə düşür. Ölkələrimiz arasında humanitar sahədə də əməkdaşlıq genişlənir. Biz, həmçinin Xəzər dənizinin hüquqi statusu ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi apardıq.

Rusiyanın xarici işlər naziri Sergey Lavrov bildirib ki, ölkələrimiz arasında diplomatik münasibətlərin 25 ili ərzində çox böyük uğurlar əldə olunub. Sözsüz ki, bu uğurların təməlində Azərbaycan və Rusiya prezidentlərinin qarşılıqlı etimada əsaslanan münasibətləri dayanır. Rusiya ilə Azərbaycan strateji tərəfdaşlardır. Ölkələrimiz arasında əməkdaşlıq bütün sahələri, o cümlədən ticarət, hərbi, parlamentlərarası, təhsil sahələrini əhatə edir.

Sergey Lavrov deyib ki, azərbaycanlı həmkarı ilə görüşlərdə, həmçinin ölkələrimiz arasında ticari-iqtisadi əlaqələr də müzakirə olunub. Biz beynəlxalq platformalar, o cümlədən BMT, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa İttifaqı, MDB çərçivəsində sıx əməkdaşlıq edirik. Biz, eyni zamanda, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələlərinə də toxunduq. Bu münaqişə heç kimin xeyrinə deyil, həll yolu tapılmalıdır. ATƏT-in Minsk qrupunun həmsədri kimi bu məsələnin sülh yolu ilə həlli üçün səylərimizi davam etdirəcəyik. İnanıram ki, münaqişənin həllində diplomatiya qalib gələcək.

Mətbuat konfransı çərçivəsində Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında diplomatik münasibətlərin qurulmasının 25 illiyinə həsr olunmuş xatirə zərfinin təntənəli şəkildə möhürlənməsi və mübadiləsi mərasimi olub. Zərfləri Azərbaycanın və Rusiyanın xarici işlər nazirləri möhürləyiblər.

Sonra xarici işlər naziri Sergey Lavrov Moskva vilayətinin Lyubereçkom rayonu ərazisində Pexorka çayında batmaqda olan iki azyaşlı uşağı xilas edərkən faciəvi şəkildə həlak olmuş Salam Nağıyevin təltif edildiyi "Suda batanları xilas etdiyinə görə" medalını Rusiya Fövqəladə Hallar Nazirliyi adından onun atası Həmdulla Nağıyevə təqdim edib.

Azərbaycan.- 2017.-21 noyabr.- S. 2.